*TÜRK DÜNYASI / TURKISH WORLD*
*Dil ve Edebiyat Dergisi / Journal of Language and Literature*
Sayı/Issue: 45 (Bahar-Spring 2018) - ISSSN: 1301-0077 Ankara, TURKEY
**DOI Numarası/DOI Number: 10.24155/tdk.2018.59**

# BƏDİİ- SƏNƏDLİ NƏSR: JANR XÜSUSİYYƏTLƏRİ VƏ TİPOLOGIYASI

*Lala HASANOVA*[*]

***Özet:***

*Makalede edebî türlerin sanatsal-belgesel türü üzerinde durulmuştur. Sanatsal-belgesel edebî türün tanımlanmasından sonra, ona özgü yapısı, türü belirleyen şekil ve içerik özellikleri ele alınmıştır. Modern edebî eleştiri alanında konu üzerine yazılmış literatür incelenmiş, farklı yorumlar, araştırmalar ele alınarak değerlendirilmiştir. Meselenin soru işaretleri belirlenmiş, problemleri üzerinde durulmuştur. Bu türde yazarlar ve profesyonel olmayan yazarlar tarafından yazılmış metinler karşılaştırılmış, konunun farklı yönlerine ve sanatsal niteliklerine değinilmiştir.*

*Çağdaş edebiyatta tasnif ve tanımlanmada edebî metinleri "fiction" ve "nonfiction" olarak ikiye ayırmanın yanlış olduğu ileri sürülmüş, sanatsal-belgesel nesrin özellikleri ve sanatsal niteliklerine dayanılarak, sanatsal edebiyatın üçlü sınıflandırılmasının -sanatsal, sanatsal-belgesel ve belgesel eserler- daha doğru ve mantıklı bir tasnif olacağı öne sürülmüştür.*

*Ayrıca yazar memoirlerini (biyografi, yaşam öyküsü, anı yazısı) ve günlüklerini yazar olmayanların kaleminden çıkmış belgesel metinlerden farklı kılan sanatsal nitelikleri aydınlatılmıştır. "Publisistik" (sosyal-politik konulu yazılar) ve sanatsal-belgesel düzyazı örnekleri arasındaki farklar ortaya koyulmuştur. Son yıllarda bunların ikisinin de özelliklerini içinde barındıran karışık "hibrit" eserlerin ortaya çıktığı, bu eserlerin tür değişkeleri, yeni tür modifikasyonları biçimlenmekte olduğu ve edebî metinlerde ifade bulduğu belirtilmiştir.*

***Anahtar kelimeler:*** *Sanatsal-belgisel düzyazı, Azerbaycan edebiyatı, publisistik metinler, günlük, memoir edebiyat.*

[*] Doç. Dr., Azerbaycan Millî İlimler Akademisi Nizami Gencevi Enstitüsü Çağdaş Türk Lehçeleri ve Edebiyatları Bölümü, hltlala@mail.ru.

## Literary-documentary Prose: Genre Features and Typology

***Abstract:***

*In the paper was studied genre of literary-documantary, features of content, directions of investigation and was described features of artistic expression in the documentary. In Modern literary criticism was researched the scientific literature on the subject, the problematic issues were revealed.*

*It was noted that theese plays were differed with literary qualities which by writers who owners of non-professional. In modern literature was noted that is not correct of the dual classification, fiction and nonfiction, was investigated features of literary-documentary prose.*

*The classification of the trio literature: the necessity of grouping on the literary, literary-documentary and documentary works were noted here. In the paper was reported the literary quality difference of the memories, diaries from the works of non-writers. In the paper was also noted the difference between publicity and literary-documentary prose examples, «hybrid» works have been created in recent years to combine the features of both. The genre system of these works is characterized and new genre modifications have been noted.*

***Keywords:*** *Literary-documantary prose, Azerbaijan literature, publicity, diary, memoir.*

### Giriş

XX əsrin ikinci yarısından başlayaraq bir-birinə əks, iki fərqli anlayışı özündə birləşdirən bədii-sənədli nəsrin aktuallaşması mübahisələrə səbəb olsa da, son dövr yaranan bir çox əsərlər bu bölgünün vacib olduğunu şərtləndirir. Müəyyən dövrdən sonra yazıçılar özləri də yaradıcılıqlarının ənənəvi kanonlara uyğun olmadığını hiss edərək yeni təsnifata ehtiyac duyurlar. Konstantin Paustovskiy "yeni nəsrə" keçmə istəyini vurğulayaraq "Seçilmiş nəsr əsərlərinə" yazdığı ön sözdə "İtaliya qeydləri", "Üçüncü görüş", "Payızla üz-üzə" və digər hekayələrinin əvvəlki əsərlərindən az və ya çox dərəcədə fərqləndiyini qeyd edir. "Materialın sərbəst şərhi və aydınlığı, dilin "qabarıqlığı" – müəllif buna doğru can atmalıdır". "...Mənim qeyd etdiyim əsərlərin janrını necə müəyyən edim? Bilmirəm. Onlar nə adi qaydada hekayələrdi, nə oçerk nə də məqalə. Onlar heç mənzum şeirlər də deyillər. Bu qeydlər düşüncələrdir, sadəcə dostlarla söhbətdir" ( Паустовский 1983 : 238).

Tədqiqatçılara görə bu əsərləri ona görə sənədli əsərlərə aid edirlər ki, "bu gerçəklik faktiki həqiqət olmasa da, oxucu sona qədər hadisələrin gerçəkliyinə inanır" (Гинзбург 1970 : 63). Estetik məzmun isə onları bədii ədəbiyyat olaraq dəyərləndirməyə imkan verir (Гинзбург 1970 : 63).

1980-2000-ci illərdə xarici ədəbiyyatşünaslıqda mövzu ilə bağlı bir çox araşdırmalar aparılmış, dissertasiyalar müdafiə olunmuşdur. Lakin buna

baxmayaraq mövzunun ədəbiyyatşünaslıq lüğətlərində, ensiklopediyalarda, ədəbiyyat nəzəriyyələrində yer almaması səbəbindən az tədqiq olunan sahələrdən olduğu, müasir ədəbiyyatşünaslıqda ayrıca monoqrafik tədqiqata cəlb edilmədiyi qeyd olunur (Местергази 2008:14).

Bədii–sənədli nəsr E.Mesterqazı, A.Tone, A.Qaliç Y.Yavçunovskiy, L.Qinzburq, L.Elizavetina, T.Kolyadiç, A.Tartakovskiy, İ.Şaytanov, V. Baraxov, İ.Vinokur, A.Xollikov və b. tərəfindən araşdırılmışdır. E.Mesterqazi ədəbiyyatşünaslıqda işlənən "sənədli ədəbiyyat", "bədii-sənədli ədəbiyyat", "fakt ədəbiyyatı" və s. ifadələri uğurlu saymayaraq onların yalnız ədəbi-tənqidi yazılarda keçərli olduğunu, elmdə rəsmən qəbul olunmadıqlarını qeyd edərək, "bədii-sənədli başlanğıc" ifadəsinin işlədilməsini daha uğurlu hesab edir (Местергази 2008:14). Ədəbiyyatşünaslıqda yeni olan bu istila hələ tam qəbul olunmadığından, biz, "bədii-sənədli nəsr" anlayışından istifadə olunmasının tərəfdarıyıq.

**Müasir ədəbiyyatşünaslıqda bədii-sənədli nəsrin tədqiqi**

Ədəbiyyatşünaslıqda bədii-sənədli ədəbiyyat əsasən ədəbi növ (V.Muravyev, Y.Yavçunovskiy), janr (V.Fyodorov) və ya (əsasən son illərdə) sənədlilik bədii ədəbiyyata və publisistikaya xas xüsusiyyət olaraq öyrənilir (A.Adamoviç, O.Nesmelova). E.Mesterqazi Boryevin "sənədli nəsr – faktların sənədli təsdiqinin yer aldığı bədii əsərdir" fikrini əsas gətirərək müasir ədəbiyyatşünaslıqda ənənəvi bölgüdən imtina olunduğunu, sənədli nəsrin bədii ədəbiyyata aid edildiyini qeyd edir (Местергази 2007).

S.Şərifova bədii-sənədli nəsrin ayrıca janr və ya növ olaraq öyrənilməsini əsassız sayaraq, fikrini bu cür ümumiləşdirmişdir: "... bədii-sənədli ədəbiyyat – sənədli janrların elementlərinin yer alması nəticəsində bədii janrın məzmun dəyişikliyinə uğradığı bədii əsərlərdir" (Шарифова 2011: 274).

Beləliklə, bu gün də ədəbiyyatşünaslıqda bədii-sənədli ədəbiyyatın müstəqil növ və ya janr olaraq öyrənilməsi ilə bağlı yekdil yanaşma mövcud deyil.

Bədii-sənədli əsərlərdə faktlar müəllif tərəfindən əsərin konsepsiyasına uyğun şəkildə qurulur, seçim aparılır, sistemləşdirilərək ümumiləşdirilir, faktın obrazlaşdırılması baş verir. Hər bir bədii-sənədli əsərdə müəllifin subyektiv yanaşması yer alır. Bu baxımdan eyni dövrdə yaşayan insanların bədii-sənədli əsərlərində eyni hadisələr, mövzular yer alsa da yanaşma, qiymətləndirmə tərzi müxtəlif olur. Əsasən də mühacirət əsərləri ilə sovet dövründə yazılan əsərləri müqayisə etdikdə bu fərq daha aydın şəkildə nəzərə çarpır.

Müasir ədəbiyyatşünaslıqda bədiilik təxəyyülün mövcudluğu ilə eyniləşdirilmir. "Bədiilik – ("estetik dəyər") müəllifin təsvir edilən faktlara münasibətini ehtiva edən tipikləşmənin və ümumiləşdirmənin, elementlərin

seçiminin və yaradıcı uyğunluğunun nəticəsidir"(Куприяновский 1981: 132). Sənədliliyin birbaşa və bədii obrazın yaradılması üçün vasitə olaraq istifadəsinin fərqləndirilməsinin vacibliyini qeyd edən P.V.Kupriyanovski yazır: "Birinci halda bədii keyfiyyətlərə malik olmayan sənədli ədəbiyyat yaranırsa: əsl məktublar, gündəliklər, xatirələr, səyahətnamələr, tarixi və bioqrafik tədqiqatlar, ikinci halda sənədlilik bədii əsərlərdə müşahidə olunur: oçerklər, bədii bioqrafiyalar" (Куприяновский 1981: 134) bədii-memuarlar yaranır. Burada "gerçək sənəd və faktların yaradıcı seçimi, sistemləşdirilməsi, ümumiləşdirilməsi yer alır. Faktlar müəllifin konsepsiyasına uyğun olaraq seçilərək, müəyyən ideya-emosional ahəng yaradır. Bunlar olmadan gerçəkliyin obrazlı təsviri mümkün deyil" (Хорев 1985 : 23). "Sənədlər özləri bədiiliyi yaratmır, burada müəllif müdaxiləsi mütləqdir. Bu münasibətlər müstəvisində – müəllifin və ya sənədin subyektivliyi və onlar üzərindəki sonrakı iş - sənədli əsərin bədiiliyi özünü göstərir " (Родный 1989).

Qromova, E.Mesterqazi kimi tədqiqatçılar da sənədli əsərlər və sənədliliyin bədii obrazın canlandırılmasında vasitə kimi işlənməsindən bəhs edərək, birinciləri ilkin forma olaraq fərqləndirmişlər.

M.Baxtinin janr təsnifatı konsepsiyasına əsaslanan E. Mesterqazi (Местергази 2008) "sənədli başlanğıcın üstünlük təşkil etdiyi əsərləri" ("произведения с главенствующим документальным началом") sadə (ilkin) və mürəkkəb (ikili) olmaqla iki qrupa bölmüşdür.

Birincilərə xronika (salnamə), məktub, avtobioqrafiyaları, bioqrafiyaları, gündəlikləri, memuarlar (xatirələr, qeydlər), səyahətnamələri (traveloq), ikincilərə isə "gerçək" hekayələri, sənədli povest, sənədli roman (gercək roman), həmçinin "bədii təhlil təcrübəsi" (A.İ.Soljenitsının "Arxipelaq qulaq"), "səslər romanı" (S.Aleksieviçin "Dəmir oğlanlar")və b." əsərləri aid etmişdir. Tədqiqatçı, ilkin janrların müəllifinin qeyri-peşəkarlar, bədii yaradıcılıqla məşğul olmayan insanlar olduğunu bildirir.

S.Borzikova bədii-sənədli əsərləri bədiiliyin yer almadığı (xronika, məktub, gündəlik, bioqrafiya və s.) ilkin forma və bu formadan uzaqlaşdıqca yaranan bədii cəhətdən daha mürəkkəb əsərlər (traveloq, sənədli hekayə, povest, roman və s.) və bədiiliyin faktdan daha çox əhəmiyyət kəsb etdiyi (gerçək faktlar əsasında qələmə alınan hekayə/povest/roman) əsərlər olaraq qruplaşdırmışdır (Борзикова 2015).

O.Q.Kvitçenko sənədliliyin (obyekt-obyektiv tarixi gerçəklik) və bədiiliyin (subyekt-yazıçı) nisbətinə əsaslanaraq müəllifin subyektiv münasibətinin minimum səviyyədə yer aldığı obyektiv- sənədli bədii nəsr və bu iki başlanğıcın eyni nisbətdə olduğu bədii-sənədli əsərləri fərqləndirmişdir. Bədii və sənədli xüsusiyyətlərin sintezinin yer aldığı əsərləri isə reflektiv-sənədli bədii əsərlər olaraq təsnif etmişdir (Квитченко 1982: 4-5).

Sonuncu qrupa aid edilən roman-memuarlarda, avtobioqrafik və bioqrafik romanlarda bədii nəsrdən gəlmə xüsusiyyətlər üstünlük təşkil edir. Y.V.Çəmənzəminlinin "Bir cavanın dəftəri" əsərinin janrından bəhs edən tədqiqatçı ədəbiyyatşünaslıqda mövcud fikirlərə münasibət bildirərək, əsərin gündəlik deyil avtobioqrafik povest olduğunu vurğulamış, gündəlik və avtobioqrafik povestin janr xüsusiyyətlərinə diqqət etmişdir: "avtobioqrafik povest və romanlar memuarla bədii ədəbiyyatın qovuşuğunda təzahür edən müstəqil janr formasıdır və onların memuardan fərqləndirilməsi üçün hər iki janrın bədii estetik qanunları, özünəməxsus təbiəti nəzərə alınmalıdır" (Quliyeva 1986: 34).

Gerçək materialdan istifadəyə gəldikdə, bir çox əsərlərdə gerçək faktlar verilsə də, (məsələn, tarixi əsərlərdə) bu əsərlərdə müəllif, gerçəkliyi öz təxəyyülünə uyğun şəkildə təqdim edir. Bu zaman bədii- sənədli nəsrin şərtləri pozulur. Bədii-sənədli əsərlərdə faktın təqdimində təxəyyülün yer alması mümkün olsa da, fakta istinad üstünlük təşkil etməlidir, təxəyyül gerçəkliyin baş vermə ardıcıllığına, hadisələrin mahiyyətinə siyarət etməməlidir. C.Cahanbaxışın ("Ömrün pərişan illəri"), F.Gocanın ("Qarlı, qanlı qərənfillər"), M.Çəmənlinin ("Mübariz") əsərlərində adlar, məkanlar olduğu kimi saxlanılsa da bədii təsvir sənədliliyi üstələyir.

C.Cahanbaxışın "Ömrün pərişan illəri" romanında Azərbaycanın xalq şairi Səməd Vurğunun uşaqlıq, yeniyetməlik dövrü əks olunmuş, ailə üzvləri haqqında geniş məlumat verilmişdir. V.Yusifli əsərə yazdığı son sözdə müəllifin "özündən heç bir hadisə və əhvalat uydurma"dığını "illər boyu Səməd Vurğundan, onun qardaşı Mehdixandan və ... onların ən yaxın dostu Osman Sarıvəllidən (romandakı "caydaq oğlan") eşitdiklərini qələmə aldı"ğını (Yusifli 1999: 64) qeyd etsə də, əsəri bədii-sənədli əsər olaraq qiymətləndirmək olmaz. Çünki sənətkarın həyatını bədii şəkildə qələmə alan müəllif, bir çox epizodları öz təxəyyülü əsasında işləmişdir. Bioqrafik romanda müəllifin qəhrəmanının yaşantıları üzərində geniş dayanması inandırıcı görünmür. Yazıçı, yalnız öz hisslərini təsvir edə bilər. Başqa insanın müəyyən vəziyyətdə yaşadıqlarını isə yalnız təxmin edə bilər. Səməd Vurğunun ilk nakam məhəbbətinin təsvir edildiyi əsərdə, sənədlərə, şahid ifadələrinə birbaşa istinad yer alımadığından, əsəri bədii-bioqrafik roman olaraq qiymətləndirmək daha düzgündür.

Azərbaycan ədəbiyyatşünaslığında əsasən memuarlar, səyahətnamələr, epistolyar janr araşdırılmış, digər janrlarda qələmə alınan əsərlər isə tədqiqatdan kənarda qalmışdır.

Müasir Azərbaycan ədəbiyyatda gündəlik, memuar-avtobioqrafik əsərlərin sayı çox olduğundan, bədii – sənədli nəsrin tədqiqi xüsusi aktuallıq kəsb edir.

Azərbaycan ədəbiyyatşünaslığında Nailə Səmədova ilk olaraq "M.S.Ordubadinin "Həyatım mühitim" memuarı" mövzusunda namizədlik

dissertasiyası (Səmədova 1992), daha sonra "Azərbaycan memuar ədəbiyyatı yaranması, təşəkkülü, inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (Səmədova 2011).

Müasir ədəbiyyatşünaslıqda bədii-sənədli nəsrlə bağlı problemlərdən biri yazıçı və qeyri-peşə sahiblərinin əsərlərinin birgə təhlil olunmasıdır. N.Səmədovanın tədqiqatında da bu hal yer almışdır. A.Adamoviç yazıçılar tərəfindən qələmə alınan əsərlərin, peşəkar olmayan insanlar tərəfindən yazılmış əsərlərlə eyni müstəvidə təhlilinin düzgün olmadığını vurğulayaraq, birincilərin fərqləndirilməsini tələb edir (A.Адамович 1978:13). Çünki yazıçının, şairin, sənət adamının (şüurlu və ya qeyri şüurlu surətdə, peşəkar vərdiş əsasında) hadisələrə münasibəti fərqlidir. Burada hadisələr mütləq seçimə məruz qalır, ümumiləşdirmə aparılır (hətta gündəliklərdə belə), gerçəkliyin bədii şərhi verilir, predmetin obrazlı təsviri verilir. Adi insanlar isə sadəcə baş verənlərini sadalamaqla kifayətlənirlər. Bu məqama vaxtı ilə V.Belinskiy də diqqət etmişdir.

E.Mesterqazi adi insanların xatirələrinin ("naivnoe pismo") öyrənilməsinin vacibliyini qeyd edərk, tədqiqatında bu əsərlərə müraciət etmişdir (Местергази 2008)). Bu əsərlərin poetikasının yazıçı xatirələri ilə oxşar olmadığını (bu qeydlərdə tarixi həqiqət, dövrün ictimai-siyasi gerçəkliklərinin əksi və s. kimi xüsusiyyətlər daha xarakterikdir) nəzərə alaraq, təhlil zamanı fərqli xüsusiyyətlərin əsas götürülməli olduğunu, bu yazıların sənədli nəsrə aid edilməsinin daha uyğun olduğunu hesab edirik.

Beləliklə, bədi-sənədli nəsr nümunələrində sənəd özü özlüyündə estetik əhəmiyyət kəsb etmir, o "mətnin bədii strukturunun bir hissəsidir" (Хорев 1985:199). Bu əsərlərdə sənəd gerçəkliyin prototipi olub, bədii təxəyyül üçün sadəcə ilkin material deyil, burada "faktın gizli estetik enerjisi təzahür edir, gerçək hadisədən, konkret insanın xarakterindən bəhs edən müəllif, özü, dövrü haqqında hisslərini, düşüncələrini, insanlar və hadisələr haqqında öz təsəvvürünü ifadə edir" (Хорев 1985: 199).

## Bədii publisitika və bədii-sənədli nəsr

Çox zaman publisistika ilə bədii-sənədli nəsr eyniləşdirilir, onların fərqli xüsusiyyətləri nəzərə alınmır. Publisistika fərqli xüsusiyyətlərə malikdir. Həm də bədii-sənədli nəsr, publisistikadan janr baxımından daha zəngindir.

Kupriyanovski sənədlərə əsaslanan əsərləri üç qrupa bölür: Bədii-sənədli, bədii-publisistik və bədii-tarixi (Куприяновский 1981 : 11 - 13]. Bu təsnifat dolğun olub müəyyən dövrlər ədəbiyyatını tam şəkildə xarakterizə etsə də, son illər ötən illərin təsnifatlarının qorunması mümkün olmur, janrların sintezi sərhədlərin aradan qalxmasına səbəb olur.

A.Aqranovski haqlı olaraq getdikcə publisistika ilə belletristika arasındakı fərqlərin aradan qalxdığını qeyd edir. Nasirlərin sənədə, jurnalistlərin bədii yaradıcılıq üsullarına əl atdığını misal göstərərək, bu iki sahənin qarşılaşdırılmasının əleyhinə çıxış edir (Аргановский 1999). J.Konovalova bədii publisistikanın sənədli ədəbiyyatdan fərqinin mövzunun miqyasında, fundamentallığında və həcmində büruzə verdiyini yazır (Коновалова 2009), O.Nesmelovanın təsnifatına əsaslanaraq publisistika və sənədli əsərlərin sintezindən yaranmış əsərlərin "hibrid" janr olaraq öyrənilməsini daha düzgün hesab edir. "Bu gün bədii-sənədli əsərlərin yalnız publisistika və ya ədəbiyyat nəzəriyyəsi nöqteyi-nəzərindən tədqiqi düzgün deyil. Biz bu əsərlərin həm ictimai-şüura təsirini, həm də sənədli əsərlərdə yer alan bədii vasitələri əhatə edən kompleks təhlilin tərəfdarıyıq" (Коновалова 2009). Bir çox bədii-sənədli əsərlərdə müasir problemlərə geniş yer verildiyində (S.Azərinin, S. Əhmədovun və b. əsərlər), bədii-nəsrdə publisistik elementlərdən bəhs etmək daha düzgündür.

Çox zaman publisistikanın janrları bədii janrlar olaraq öyrənilir, lakin təhlil bu janrın əsasən publisistikaya aid olduğunu üzə çıxarır. Məsələn, tədqiqatçının oçerki bədii-sənədli əsər olaraq tədqiq etdiyi yazıda bu həmin qeydlər qəzet janrı olaraq təhlil edilir, bədii keyfiyyətləri ilə göstərilmir (Сафронов 2012). Sənədli əsərlər daha çox tarixi həqiqətə, fakta əsaslanma üzərində qurulur, təhkiyənin xronikallığı, hadisələrin baş vermə ardıcıllığının saxlanılması, bədii vasitələrdən imtina kimi xüsusiyyətlərdə təzahür edir.

A.Tone bədii-sənədli nəsrə müəllifin şəxsən sosial əhəmiyyətli hadisələr haqqında topladığı" materialları əhatə edən əsərlərin aid edilməli olduğunu yazır. Müəllifin faktı əsərə olduğu kimi daxil etmədiyini, onların "bədii cəhətdən uyğunlaşdırılaraq" mətndə yer aldıqlarını qeyd edən tədqiqatçı, materialların seçim ardıcıllığında müəllifin xüsusi rolunu qeyd etmiş, bədii mətnə daxil edilən sənədlərin həmin kitabın bədii prinsiplərinə uyğunlaşdırıldığını vurğulamışdı (Тоне 1999). Beləliklə, mətnə daxil olan sənəd, müəllifin fikrini təsdiq və ya inkar edilməsinə xidmət edərək əsərdə polemik kontekstin yaranmasına xidmət edir. Publisistikadan fərqli olaraq bədii-sənədli əsərdə sənəd informativ funksiyası ilə deyil, bədii mətnin semantik məzmunu çərçivəsində maraq doğurur, mətnin bir hissəsinə çevrilərək, dövrün, əsas qəhrəmanın obrazının təsvirini dolğunlaşdırılmasına xidmət edir.

Beləliklə, bədii-sənədli nəsrə təxəyyüllə sənədliliyin sintezi əsasında yazılmış əsərlər aid edilir. Sənədli əsərlərdə bədii şərhləndirmə, ümumiləşdirmə deyil fakt, müasir mövzuların səsləndirilməsi üstünlük təşkil edir. Bu səbəbdən də bir çox əsərləri məsələn, Tahir Abidin "Dövlət çevrilişi", Yusif Kərimovun "Xəyanətin ad günü" əsərlərini sənədli, M.Süleymanovun "Eşitdiklərim,

oxuduqlarım, gördüklərim", Q.İlkinin "Bakı və bakılılar" əsərlərini tarixi-sənədli əsərlər olaraq qiymətləndirmək daha düzgündür.

**Bədii-sənədli nəsrin janr sistemi**

Bədii-sənədli əsərlər zəngin janrlar sisteminə malikdir. Məktublar, gündəliklər – öz yazıldığı dövrü əhatə edir (memuarlarda olduğu kimi ikili zaman yer almır), məktublar müəyyən şəxsə ünvanlanır, gündəliklərin çapı əsasən müəllif tərəfindən nəzərdə tutulmur (avtokommunikativlik).

L. Qinzburq memuarlar, xatirələr, avtobioqrafiyaların "müasir dövrdən keçmişə baxışı ehtiva (müəllif keçmiş hadisələri bu gün müstəvisindən təsvir etməyə çalışır)" etdiyini, bu əsərlərin "həmişə oxucuya ünvanlan" dığını qeyd edir (Гинзбург 1970:65). Həmin əsərləri bədii ədəbiyyata aid edən tədqiqatçı burada "gerçəkliyin, insanın bədii obrazının süjet xətti üzrə canlandırıl"dığını bildirmişdir (Гинзбург 1970: 65).

Bir çox tədqiqatlarda bədii-sənədli nəsr, bədii-sənədli ədəbiyyat istilasından istifadə etməyərək, memuarları, avtobioqrafiyaları, xatirələri və gündəlikləri memuar– avtobioqrafik janrlar olaraq təsnif edirlər. Bu cür yanaşma bədii-sənədli nəsrin bütün müxtəlifliyini əhatə etmir.

Məsələn, Kolyadiç tədqiqatında bədii-sənədli ədəbiyyat deyil memuar ədəbiyyatı anlayışından istifadə edərək məktublar, gündəliklər, səyahətnamələr, bədii portret, avtobioqrafik və bioqrafik romanlardan memuar ədəbiyyatının janrları olaraq bəhs etmişdir (Колядич 1999). Belçikova isə gündəlikləri memuar ədəbiyyatının ilkin janrları olaraq dəyərləndirmişdir (Бельчикова 1934 :130).

Lakin məlumdur ki, memuar ədəbiyyat əsasən yaddaşa əsaslanırsa, xatirələr əsasında yazılırsa gündəliklər, məktublar üçün bu xüsusiyyət vacib deyil. Buradakı qeydlər retrospektiv deyil sinxron ola bilər. Bu baxımdan biz bədii-sənədli əsərləri memuarlar, gündəliklər, məktublar (bu janr bu gün inkişaf etməsə də, əsrin əvvəlində qələmə alınan bədii-sənədli nəsrin təsnifatında vacib yer tutur), səyahətnamələr, qeyd kitabçaları olaraq təsnif edilməsini daha uyğun bilirik. Avtobioqrafik əsərlərdə özündən bəhs edən yazıçı əsasən sənədlərə deyil, xatirələrinə üstünlük verir. Bioqrafik əsərlərdə isə özünə tam aydın olmayan faktları aydınlaşdırmağa çalışan müəllif daha çox sənədlərə və ya digər şəxslərin xatirələrinə müraciət edir.

Memuarlar bədii-sənədli nəsrin janr sisteminə aid olub iki qrupa bölünürlər: memuar –avtobioqrafik və bioqrafik əsərlər. Bəzi tədqiqatçılar memuarların və avtobioqrafik əsərlərin müstəqil şəkildə öyrənilməsinə üstünlük verirlər**.**

Bədii-sənədli ədəbiyyatın janr təsnifatı üçün: "1) müəllif mövqeyi, 2) mətnin estetik strukturu, 3) belletristik sənədli təhkiyə üslubu, 4)

“mürəkkəblik” və faktuallıq / fiksə olunma” kimi xüsusiyyətlər əsas götürülür (Borzikova 2015).

Bədii-sənədli nəsrlə bağlı tədqiqatlarla bağlı fikirləri bu şəkildə ümumiləşdirmək olar:

1. Bu əsərlərdə fərqli müəllif, obraz, gerçəklik yer alır. Bu zaman sənədlərə əsaslanma gerçəkliyə, reallığa istinad mütləqdir. Sənədlər isə fərqlidir: müxtəlif materiallar, məktublar, qeydlərlə yanaşı, öz yaddaşına əsaslanma, başqalarının xatirələri və s.

2. Bədii-sənədli əsər ilk öncə real faktlara əsaslanmalıdır. Lakin bu əsərlərdə təxəyyül, subyektiv yanaşmaya da yer verilir. Müəyyən seçimə məruz qalan faktlar müəllif dəyərləndirilməsini ifadə edir. Belə ki, əsasən yazıçı qələminə aid olan bədii-sənədli əsərlərdə faktın ümumiləşdirilməsi baş verir. Real şəxsiyyətdən, faktdan bəhs edərkən dövrün mənzərəsini yaratmağa cəhd edən müəllif, peşəkar olaraq hadisənin bədii şərhini verməyə, tipikləşdirməyə üz tutur. Bədii-sənədli nəsrdə obrazların, hadisələrin bədii şərhləndirilməsi baxımında bu hallar yol verilən olsa da, gerçəkliyin təhrifi yolverilməzdir.

**Müasir ədəbiyyatda bədii-sənədli nəsrin modifikasiyaları**

Məlumdur ki, bədii-sənədli əsərlərdə əsasən retrospektiv zamanla yanaşı indiki zaman da təsvir edilir. Müəlliflər, ötən illəri indiki zaman perspektivindən qiymətləndirməyə çalışırlar. Hadisələri nəql etdikdə avtobioqrafik qəhrəman obrazı qabarırsa, hadisələri qiymətləndirməyə çalışdıqda, məlumatları qarşılaşdıqda müəllif-təhkiyəçi önə çıxır.

Bədii-sənədli əsərlərin mətn strukturu mürəkkəb olur. Obrazların özlərini birbaşa ifadə edə bilmələri üçün mətnə məktublar, bədii əsərdən parçalar daxil edilir. Bu müxtəlif materialı bir məcrada birləşdirmək montaj vasitəsilə mümkün olur.

Mənbələrdən alınan ifadələrin üstünlük təşkil etməsi bədii-sənədli nəsr nümunələrində müəllif mövqeyinin ikinci plana keçməsi (əsrin əvvəlində yazılmış əsərlərdə müəllif əsasən öz yaddaşına əsaslanırdısa illər keçdikcə şəxsi təəssüratlar ikinci planda qalır, sənədlərə istinad ön plana keçir) baş verir, araşdırma xarakteri üstünlük təşkil edir.Oxucularda şəxsi təəssüratları ilə bağlı yaranacaq inamsızlığı nəzərə alan (ahıl yaşlarda və ya ideoloji tələblərlə bağlı gerçəkliyin təhrifi) müəlliflər, faktların dəqiqliyini, dolğunluğunu vurğulamağa çalışaraq mənbələrə daha çox müraciət edirlər.

Son illər getdikcə artan bədii-səndəli nəsr nümunələrində janr modifikasiyaları qeyd olunur. A.Tone, V.Fyodorov əsasən bədii-sənədli janrın yeni formalarını araşdırmışlar. Bu əsərlər hadisələrin şahidi olmuş insanların “ifadə”lərindən ibarət olduğunu qeyd edən tədqiqatşılar, öncəki bədii-sənədli nəsr nümunələrindən bir çox fərqlərini göstərmişlər: əvvəlki əsərlər tarixi

hadisələr haqqında reportajlar idisə, son dövrdə yazılan əsərlərdə müasir dünyamızın problemləri əks olunmuşdur. "Kollaj üsulundan istifadə, müxtəlif məzmunlu, üslublu yazılarda psixoloji özünüdərk, bu xüsusiyyətdən irəli gələn, antik ədəbiyyata xas çoxsəslilik yer alır... Yeni janrı xarakterizə edən fərqli prinsip - həyatın çoxsəsli tədqiqidir" («Многоголосное самоисследование жизни» (Тоне 1999). Yeni janrın mövzu və problematika yeniliyini qeyd edən tədqiqatçı yazır: "Birincisi, bu kitablar cinayətlərdən və cinayətlərin qurbanlarından bəhs edir. İkincisi, bu cinayətlər qurbanların dilindən nəql olunur" (Тоне 1999). Əsas ittiham edilən isə totalitar rejimdir. Sovet dövründə yazılan əsərlərdə bu münasibət birbaşa bildirilmir, daha çox dolayısı yollara "eyhamlar"la çatdırılırsa, müstəqillik illərindən sonra bu ittiham müəlliflər tərəfindən daha kəskin ifadə olunmuşdur.

Bu reportaj-əsərlərdə "xalqın yaddaşının cəmlənməsi"nin baş verdiyi... müxtəlif hekayətlərin müəyyən emosional ardıcıllıqla düzülməsi"nin əsas olduğu göstərilmişdir (Тоне 1999). Şəxsən gördüklərindən deyil, sənədlərdən istifadə hadisələrin təsvir perspektivini genişləndirir. Müəllif, yalnız öz xatirələri ilə kifayətlənməyərək, hadisələri geniş rakursdan canlandırmağa çalışır.

Müstəqillik illərində tariximizdə bu qanlı hadisələr çox olsa da, 20 yanvar, Qarabağ müharibəsi, Xocalı soyqırımı, təəssüf ki, bu faciələr əsasən publisistikada geniş təsvir olunmuş, nəsrdə o qədər də əks olunmamışdır.

Azərbaycan ədəbiyyatında bu yeniliklər sənədlərin önə keçməsində, bioqrafik tədqiqat əsərlərinin yaranmasında özünü göstərmişdir. Məsələn, Anarın "Kərəm kim", E.Axindovanın "H.Əliyev. Şəxsiyyət və zaman" bioqrafik -tədqiqat romanlarında gerçək şəxsiyyətlərinin həyatının yenidən rekonstruksiyası yer almışdır.

## NƏTİCƏ

Beləliklə, tədqiqat nəticəsində müasir ədəbiyyatda yer alan ikili təsnifatın fiction və nonfiction bölgüsünün müasir ədəbiyyatı tam olaraq əhatə etmədiyi, bədii-sənədli nəsrin ayrıca öyrənilməsi zərurətinin meydana çıxdığı qeyd olunur. Lakin bədii-sənədli nəsrirn bədii ədəbiyyata qarşı qoyularaq janr, növ və ya keyfiyyət olaraq örənilməsinin də uyğun olmadığı vurğulanır. Müasir tədqiqatlara əsaslanaraq bədii-sənədli nəsrin "faktların sənədli təsdiqini aldığı" bədii ədəbiyyat olduğu qeyd olunmuşdur. Bədii-sənədli və publisitik əsərlər arasında fərqlər öyrənilsə də, son illər qələmə alınan əsərlərə sintezin xarakterik olduğu qeyd olunmuşdur.

Memuarlar- avtobioqrafik və bioqrafik romanlar, gündəliklər, məktublar kimi janrların fərqləndirilməsi, müasir dövrdə yaranan yeni modifikasiyaların

öyrənilməsi müasir dövrdə ədəbiyyatın aparıcı istiqamətinə çevrilən bu ədəbiyyatı daha geniş təhlilə imkan verir.

Bədi-sənədli əsərləri gerçək fakt əsasında qələmə alınmış bədii əsərlərdən fərqləndirmək, bədii-sənədli nəsrin məhz gerçəkliyin bədii təsvirinin yer aldığı əsərləri əhatə etdiyini qeyd etmək vacibdir.

## Kaynakça


1. Eminalıyev, E. (1997), *A.Şaiqin "Xatirələrim" əsəri kamil memuar nümunəsi kimi.* Filol. üzrə e.n. alimik dərəcəsi almaq üçün təqdim edilmiş dissert. afvtoreferatı. Bakı.
2. Yusifli, V. (1999), "*Son söz", Azərbaycan,* S. 10-11, s. 99
3. Quliyeva, P. (1986), "Memuar və povest (Y.V. Çəmənzəminlinin "Bir cavanın dəftəri" əsərinin janrı haqqında)", *Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası,* S.3, s. 45-51
4. Məmmədli, C. (1998), Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri, Bakı univ-t nəşriyyatı, Bakı.
5. Səmədova, N., (2006), *Azərbaycan memuar ədəbiyyatı tarixi.* Nurlan, Bakı .
6. Səmədova, N. (1992), *Məmməd Səid Ordubadinin "Həyatım və mühitim" memuarı.* Filolg.üzrə e.n. alimik dərəcəsi almaq üçün təqdim edilmiş dissert. Avtoreferatı. Bakı.
7. Səmədova, N. (2011), *Azərbaycan memuar ədəbiyyatının yaranması, təşəkkülü və inkişaf mərhələləri*. Filol.üzrə e.d. alimik dərəcəsi almaq üçün təqdim edilmiş dissert. Avtoreferatı. Bakı.
8. Адамович, А. (1978), «В соавторстве с народом», Вопросы литературы, №5, с. 12-52
9. Аграновский, В,А. (1999), «Вторая древнейшая. Беседы о журналистике», Вагриус, Москва http://lib.ru/NEWPROZA/AGRANOWSKIJ_W/agran_01.txt
10. Бельчиков Н ., Дынник В .(1934), « Мемуарная литература». Литературная энциклопедия:

В 11 т. — [М.], Т. 7. — М.: ОГИЗ РСФСР, гос. словарно-энцикл. изд-во «Сов. Энцикл.», 1934 Стб. 131—149.http://feb-web.ru/feb/litenc/encyclop/le7/le7-1312.htm

11. Бозрикова, С, А. (2015), Нарративная структура документального романа Т. *Капоте «Хладнокровное убийство».* Автореферат диссертации на соискание уче ной степени кандидата филологических наук. Самара. http://cheloveknauka.com/narrativnaya-struktura-dokumentalnogo-romana-t-kapote-hladnokrovnoe-ubiystvo
12. Гинзбург, Л. (1970) О документальной литературе о принципах построения характера, Вопросы литературы, №7, с.62-90
13. Квитченко, О. Г., (1982), Жанровые разновидности документального романа в советской прозе 70-х годов, ö №4, с. 3-10
14. Колядич, Т. (1999) Воспоминания писателей XX века: эволюция, проблематика, типология. М. http://litresp.ru/chitat/ru/%D0%9A/kolyadich-tatjyana-m/vospominaniya-pisatelej-hh-veka-evolyuciya-problematika-tipologiya
15. Коновалова, Ж.Г (2009), «Американская мечта» в художественно-документальной литературе США второй половины XX века. Автореферат

диссертации на соискание ученой степени кандидата филологических наук. Казань, dlib.rsl.ru/loader/view/01003485595?get=pdf

16. Куприяновский, П,В. (1981) Проблемы художественно-документальной литературы, Куприяновский П.В. Доверие к жизни. Ярославль, с. 129-140.
17. Лейдерман Н.Л., Липовецкий М., Н. (2003), Современная литература. Том 1 .pdf https://studfiles.net/preview/4416877/page:30/
18. «Мемуары на сломе эпох» (2000), Вопросы литературы, №1 http://magazines.russ.ru/voplit/2000/1/krugly.html
19. Местергази,Е.Г. (2007), О термине «документальная литература, Вестник Тамбовского университета. Серия гуманитарные науки, выпуск 11(55), 2007 https://cyberleninka.ru/article/n/o- termine-dokumentalnaya-literatura
20. Местергази, Е, Г (2008) Художественная словесность и реальность (документальное начало в отечественной литературе XX века). Автореферат диссертации на соискание ученой степени доктора филологических наук, Москва, http://cheloveknauka.com/hudozhestvennaya-slovesnost-i-realnost#ixzz4v5PtGk1E
21. Палиевский, П., В (1978), Документ в современной литературе, Палиевский П. В. Литература и теория. Современник . Москва. с. 121-167.
22. Паустовский, К. (1983), Золотая роза. Советский писатель, Москва.
23. Родный О. жанры художественно-документальной литературы и повесть В.Карпова file:///C:/Users/User-PC/Downloads/Pl_1991_1_12%20(1).pdf
24. Сафронов А.В. (2012), Жанровое своеобразие русской художественной документалистики (очерк, мемуары, «лагерная» проза): учебно-методическое пособие / Ряз. гос. ун-т им. С.А. Есенина. – Рязань.
25. Симонова Т.Г.(2002), Мемуарная проза русских писателей XX века: поэтика и типология жанра: Учебное пособие/ Гродно: ГрГУ.
26. Тоне, А. (1999) Проблемы жанровой эволюции художественно-документальной прозы 1970-1990-х гг. Автореферат диссертации на соискание кандидата филологических наук. Москва. http://cheloveknauka.com/problemy-zhanrovoy-evolyutsii-hudozhestvenno-dokumentalnoy-prozy-1970-1990-h-gg
27. Хорев, В (1985). «Современная документально-художественная литература о периоде войны (на материале польской и болгарской прозы)», Современная болгарская проза и литературы европейских социалистических стран. Наука, Москва, с. 197-218
28. Шарифова, С (2011), Жанровое смещение в романе: коммуникативно-социокогнитивный подход. «Московский Парнас», Москва.
29. Федоров, В. (1991), Проблемы документалистики и развитие жанра документально-художественной прозы середины 70-х-начала 80-х годов. Автореферат диссертации на соискание кандидата филологических наук, Санкт-Петербург. http://cheloveknauka.com/problemy-dokumentalistiki-i-razvitie-zhanra-dokumentalno-hudozhestvennoy-prozy-serediny-70-h-nachala-80-h-godov#ixzz4twzccjPd